# *Yuri BOÇAROV:* "Zəngəzur dəhlizi regional əməkdaşlığın yeni mərhələsini açır"

**"Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində əldə olunan tarixi irəliləyişdən sonra Zəngəzur nəqliyyat dəhlizinin gündəmə gəlməsi Cənubi Qafqazın iqtisadi və geosiyasi mənzərəsini köklü şəkildə dəyişəcək".**



Bu fikri AZƏRTAC-a açıqlamasında israilli politoloq Yuri Boçarov ifadə edib.

Onun sözlərinə görə, Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan tərəfindən ABŞ Prezidenti Donald Trampın iştirakı ilə imzalanan Birgə Bəyannamə regionu yeni əməkdaşlıq mərhələsinə çıxarır və Azərbaycanın beynəlxalq mövqeyini daha da möhkəmləndirir.

"Azərbaycan Mərkəzi Asiyanı Avropa ilə birləşdirən əsas tranzit qovşağına çevrilir. Türkiyə türk dünyası ilə quru əlaqəsini gücləndirir, Ermənistan isə iqtisadi təcriddən çıxaraq regional tərəfdaşlığa inteqrasiya edir. Bu marşrut həm də ABŞ-nin regionda mövcudluğunu artırır ki, bu da geosiyasi balansın dəyişməsi deməkdir", - deyə Boçarov vurğulayıb.

O qeyd edib ki, ABŞ, Türkiyə, Azərbaycan, Mərkəzi Asiya ölkələri və hətta Ermənistanın dəhlizin reallaşmasında maraqlı olması layihənin uğur şanslarını xeyli artırır.

"Prezident İlham Əliyev güclü beynəlxalq dəstəyə malikdir. Onun siyasi iradəsi və uzaqgörən strategiyası Azərbaycanı yenidən region gündəminin mərkəzinə çıxarır. Bu, Azərbaycanın qətiyyətli diplomatiyasının növbəti uğurudur", - deyə israilli politoloq əlavə edib.

Azərbaycan.- 2025.- 12 avqust (№167).- S.7.